“Lənkəran Open - 2026”

Beynəlxalq Şahmat Festivalının

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;
1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;
1.3. Gənc şahmatçıların Avropa, dünya çempionatlarına hazırlığı;
1.4. Azərbaycan hakimlərinin beynəlxalq normalarının ödənilməsi.

2. Təşkilatçılar

2.1. Azərbaycan Şahmat Federasiyası.
2.2. Müstəqil təşkilatçı Ceyhun Məmmədov (FM).

3. Keçirilmə yeri və tarixi

3.1. Festival Lənkəran şəhərində Lənkəran Olimpia İdman Kompleksində təşkil olunacaq.
3.2. Festival 27 iyun (gəlmə) - 04 (son tur və bağlanış) iyul 2026-cı il tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Festival 4 qrupda - A, B, C , D qruplarında təşkil olunur.
4.2. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.
4.3. Qruplar üzrə tələblər aşağıdakı kimidir:
4.3.1. A qrupunda beynəlxalq reytinqi 1900 və yüksək reytinqli şahmatçılar iştirak edə bilər.
4.3.2. B qrupunda beynəlxalq reytinqi 1899-dək və reytinqsiz şahmatçılar iştirak edə bilər.
4.4. Hər 2 qrupda yarış isveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla keçirilir.
4.5. A qrupunda oyuna nəzarət vaxtı oyunun sonunadək 90 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (90 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.
4.5.1 B qrupunda oyuna nəzarət vaxtı oyunun sonunadək 60 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (60 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.
4.6. Tura gecikmə vaxtı 15 dəqiqədir.
4.7. Festival daxilində C qrupu - Rapid (7 tur, isveçrə sistemi, 10’+3”) və D qrupu - Blits (9 tur, isveçrə sistemi, 3’+2”) də keçiriləcək.
4.8. Xallar bərabər olarsa qalib əmsalları aşağıdakı ardıcıllığı ilə müəyyən edilir:

A ,B, C, D qrupları üzrə
1. Şəxsi görüşün nəticəsi (81)
2. Reytinq performansı (60)
3. Buhqolts əmsalı (84) -1 ən pis nəticə atılmaqla
4. Buhqolts əmsalı (84)

4.8. Yarışların püşkatması “Swiss-Manager” proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq yarışın internet səhifəsində və www.chess-results.com saytında dərc olunacaq.
4.9. Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat	
27 iyun 2026	Gəlmə günü	Gün ərzində	
	Qeydiyyatın təsdiqi	10:00-20:00	
28 iyun 2026	Açılış mərasimi	15:00	
28 iyun 2026	1-ci tur	A və B qrupu 15:30	
29 iyun 2026	2-ci tur	A və B qrupu 10:00	
29 iyun 2026	3-cü tur	A və B qrupu 15:30	
30 iyun 2026	4-cü tur	A və B qrupu 10:00	C - Rapid (1-7 tur) 15:30
01 iyul 2026	5-ci tur	A və B qrupu 10:00	D - Blits (1-9 tur) 15:30
02 iyul 2026	6-cı tur	A və B qrupu 10:00	
02 iyul 2026	7-ci tur	A və B qrupu 15:30	
03 iyul 2026	8-ci tur	A və B qrupu 10:00	
04 iyul 2026	9-cu tur	A və B qrupu 10:00	
	Bağlanış mərasimi	15:30	

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olduğu gündən etibarən 25 iyun 2026-cı il tarixinədək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada aparılır: lankaranopen.chess.az

5.3. Yarışda iştirak üçün üzvlük haqqı aşağıdakı cədvələ əsasən müəyyən olunur:

Üzvluk haqqı		
A qrupu	2301-2400	30 AZN
	2100-2300	40 AZN
	1900-2099	60 AZN
B qrupu	1700-1899	50 AZN
	>1700	60 AZN
	Reytinqsiz	70 AZN
Rapid	Bütün iştirakçılar	20 AZN
Blits	Bütün iştirakçılar	20 AZN

5.4. Üzvlük haqqından azaddırlar: A qrupunda

a) Beynəlxalq Qrossmeysterlər (kişilər və qadınlar);
b) Beynəlxalq Ustalar (kişilər və qadınlar);
c) Veteranlar (60 yaş və daha yuxarı);
d) Beynəlxalq reytinqi kişilərdə 2450, qadınlarda 2250-dən yüksək şahmatçılar.

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu 22.650 AZN manat təşkil edir.

6.2. Mükafat fondu Azərbaycan Şahmat Federasiyası tərəfindən təmin edilir.

6.3. Mükafatlar aşağıdakı cədvəllərə əsasən müəyyən olunur:

A qrupu

S/s	Yer	Mükafat
1	I	5100 ₼ + Kubok
2	II	3400 ₼
3	III	2100 ₼
4	IV	1200 ₼
5	V	1000 ₼
6	VI	800 ₼
7	VII	600 ₼
8	VIII	500 ₼
9	IX	300 ₼
10	X	200 ₼
11	Woman-1	300 ₼
12	U16-1	300 ₼
13	50+ -1	200 ₼
14	Ən yaxşı yerli şahmatçı -1	200 ₼
	CƏMİ:	**16.200 ₼**

B qrupu

S/s	Yer	Mükafat
1	I	1000 ₼ + Kubok
2	II	700 ₼
3	III	600 ₼
4	IV	400 ₼
5	V	300 ₼
6	VI	200 ₼
7	VII	200 ₼
8	VIII	100 ₼
9	IX	100 ₼
10	X	100 ₼
11	Woman - I	200 ₼
12	12 - I	150 ₼
13	12 - II	100 ₼
14	12 - III	50 ₼
15	10 - I	150 ₼
16	10 - II	100 ₼
17	10 - III	50 ₼
18	8 - I	150 ₼
19	8 - II	100 ₼
20	8 - III	50 ₼
21	Əmsalsız - I	200 ₼
22	Əmsalsız - II	150 ₼
23	Əmsalsız - III	100 ₼
	CƏMİ:	**5250 ₼**

6.4. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ vergilərdən azaddır.

	S/s	Yer	Mükafat
Rapid	1	I	300 ₼
	2	II	200 ₼
	3	III	100 ₼
	4	IV	70 ₼
	5	V	50 ₼
	CƏMİ:		**720 ₼**
Blits	1	I	200 ₼
	2	II	120 ₼
	3	III	80 ₼
	4	IV	50 ₼
	5	V	30 ₼
	CƏMİ:		**480 ₼**

6.5. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.6. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Yerləşmə

7.1. İlk müraciət edən 2450-dən yüksək olan kişi və 2250-dən yüksək olan qadın şahmatçılar (cəmi 10 şahmatçı) yemək yataqla təşkilatçılar tərəfindən qəbul olunur.

7.2. Digər iştirakçılar üçün otel xərcləri aşağıdakı cədvəldəki kimi təklif olunur:

Hotel	Bir nəfərlik otaq		İki nəfərlik otaq		Üç nəfərlik otaq	
	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə
OİK Hotel	50 AZN	80 AZN	70 AZN	130 AZN	85 AZN	180 AZN
Mono Hotel	90 AZN	125 AZN	110 AZN	180 AZN	140 AZN	245 AZN
LUXE Hotel	40 AZN	65 AZN	45 AZN	95 AZN	60 AZN	135 AZN
Palıdlı Sahil Hotel	---	65 AZN	---	100 AZN	---	150 AZN

8. Apellyasiya

8.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərini seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

8.2. Etirazlar oyunun bitməsindən sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 100 (yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

9. Media

9.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş edilməsinə icazə verilir.

9.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başlanandan sonra ilk 5 (beş) dəqiqə ərzində icazə verilir.

10. Viza

10.1. Elektron vizaları aşağıdakı linkdən asanlıqla əldə etmək olar: https://evisa.gov.az/az/.
10.2. E-vizaya uyğun ölkələrin siyahısı https://evisa.gov.az/az/countries saytındadır.
10.3. E-vizaya aid olmayan ölkələrin şahmatçıları Azərbaycanın həmin ölkədəki səfirliyi ilə əlaqə saxlamalıdırlar.
10.4. Ehtiyyac yaranarsa Təşkilat Komitəsi giriş vizasının alınmasında köməklik göstərir.
10.5. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinə uyğun olaraq, əcnəbilər Azərbaycan Respublikası ərazisində olduqları halda, yaşadıqları yer üzrə 14 (on dörd) gün müddətində qeydiyyata düşməlidirlər https://migration.gov.az/en

Əlaqə:

Təşkilat Komitəsi
E-mail: lankaranopen@chess.az
Web: lankaranopen.chess.az
Mob/Whatsapp: +994 55 327 07 17 (Quliyev Şaiq) Əcnəbilər müraciət edə bilər.
Mob/Whatsapp: +994 50 299 21 12 (Həsənli Sirus) yerləşmə ilə baglı müraciət.
Mob/Whatsapp: +994 50 587 85 87 (Babazadə Jalə) yerli iştirakçılar müraciət edə bilər.